# PEŞƏYƏ SEVGİ SONSUZ OLANDA

Yalnız bundan sonra keçmiş sənətkarların gözlərinin nurunun, əllərinin sehrinin, ürəyinin istiliyinin məhsulu olan ən müxtəlif funksiyalı əşyalarla «dərdləşə» bilir. Bu təmas və ünsiyyətdən sonra onun zahirən cansız görünən, əslində isə yaşantılara bəzənmiş nümunələrin təbib-sayağı dərdinə çarə qılmaq üçün real imkanı yaranır. İyirmi bir il əvvəl İçəri Şəhərdəki Bəylər məscidində məskunlaşan muzey sərvətləri və xatirə əşyalarının elmi-bərpa mərkəzinə özünə sevimli və davamlı peşə seçmək üçün üz tutan «Əzimzadə məktəbi»nin müdavimi Bəstixanım Əliyeva bunların çoxunu bilmirdi. Bu məqamda onu bu peşəyə, bu sənətə həvəsləndirən vaxtaşırı olduğu muzeylərdə izahat verən bələdçilərin tez-tez dilə gətirdiyi «Bu tablonu, bu qrafik lövhəni və yaxud xalça-tikməni çox çətinliklə bərpaçılar həyata qaytarıblar» ifadələri idi. Evlərindəki kitablarda bərpa olunan və bu gün əhəmiyyətli sənət əsərinə çevrilən nümunələrin bərpadan əvvəlki cırılmış, sökülmüş vəziyyətini gördükdə onun yenidən həyata qaytarılmasına möcüzə kimi baxardı, görülən işi çox vaxt qəhrəmanlıq sayar, əlçatmaz hesab edərdi. Ağlına belə gələ bilməzdi ki, bir vaxt özü də belə «sehrkara» çevrilərək, həyata qaytaracaq sənət nümunələri əl-əl gəzəcək, muzey ekspozisiyalarını bəzədikcə özü üçün də qürurdoğurucu olacaqdır. Beləcə «Əzimzadə məktəbi»ni tərtibatçı-rəssam diplomu ilə bitirən Bəstixanımın bərpaçılıq zirvəsinə doğru gedən yola çıxması reallaşır, buna zəmin yaranırdı...

Ürəyindəki kövrək arzularını o vaxt sıxıntı və utancaqlıqla bərpa mərkəzinin yaradıcısı və direktoru Fərhad Hacıyevə danışmasını indi də ən xoş xatirə kimi unutmayıb. Fərhad müəllim o vaxt öz ətrafına bu peşəyə əsl sədaqətli adamları toplamaq istəyində olduğundan mərkəzə üz tutanları yaxşı tanımağa çalışmışdır. Bu gün əminliklə demək olar ki, heç vaxt seçimində yanılmamışdır. Odur ki, iyirmi bir il əvvəl Buzovna qəsəbəsindən İçəri Şəhərə üz tutan gənc rəssama – qızın istəyinin – yeni peşəyə yiyələnmək niyyətinin səmimiliyinə inandı və ona bəzi tövsiyələr verməklə uğurlar arzuladı, onu kollektivə təqdim etdi...



İndi illərin axarında o illərə xəyalən qayıdan Bəstixanım zaman-zaman arxada qalan anları sapa düzdükcə çoxqatlı, çoxmənalı tariximizin ayrı-ayrı səhifələrdən şirin və sonsuz dərəcədə sirli bir hekayət söyləyir. Bu nağıl düzümündə zəngin məişətimiz də var, özünəməxsus etnoqrafiyamız da, tanınmış tarixi şəxsiyyətlər ömründən səhifələr də... Onların hər birinə göz qoyduqca bizə bu gün estetik zövq verən, tarixiliyinə ecazkarlığına görə qürurlandırıcı olan əşyaların həm də gərgin və çətin bərpaçı zəhmətinin və istedadının nəticəsi oluduğuna fərəhləndirici bir inam yaradır. Bəstixanım isə bir yaradıcı – bərpaedici kimi həyata qaytardığı tikmə və xalçalarla baş-başa qalmağın çətinliyini və bu əzablı işdən aldığı mənəvi qidanın ləzzətini duyur. Yəni iş, bunu özünə ən böyük qazanc hesab edir...

Əgər təbibin uğurlu müalicəsini onun xəstənin dəqiq diaqnozunu müəyyən edə bilməsi şərtləndirirsə, bərpaçının uğuruna aparan yol isə onun tikmə və xalça sənətinin bədii və texnoloji sirlərinə bələdçiliyindən keçir. Odur ki, Bəstixanım bərpa etdiyi «təkəlduz» texnikasında yaradılmış əski bədii süfrə və pərdələrə, taxça qabağına, pərdə başına və s. nümunələrə verdiyi «ikinci həyat»a həsəd aparmamaq olmur. Bu gün onları muzey ekspozisiyalarında seyr edən tamaşaçıların da əşyalarda ümumi görünüşə xələl gətirə biləcək bir əlamət görməməsi, yalnız izahatının gedişində bələdçinin onların bərpadan sonra öz əvvəlki görkəmini aldığını xatırlatması və bütün bunların ən tələbkar seyrçidə belə təəccüb doğurması bütünlükdə bərpaçının uğurlu sonluğunu təsdiqləyir. İlk baxışda gözəgörünməyən «bərpalar»ın elə məhz bu vacib görünməzliyinə nail olmaq üçün Bəstixanım çox vaxt günlərlə, bəzən də aylarla hazırlıq işi görür, sap, parça, muncuq və s. axtarışda olur. Axı özündə bəzən illərin, bəzən də əsrlərin acısını yaşadan dekorativ-tətbiqi sənət nümunələri ilə oxşarlıq, eynilik təşkil edən detalları, materialları toplamaq çətindən də çətin bir işdir. Bu axtarışların dəqiq və şöhrətli ünvanlı əşyalara yönəlməsi isə ikiqat məsuliyyətli olur. İki il əvvəl Bəstixanım Üzeyir Hacıbəyovun Bakıdakı mənzil muzeyinin eksponatları olan bir neçə arxalıqla üz-üzə qalanda keçirdiyi həyəcanı indi də xatırlayır. Bunun ilk növbədə dahi bəstəkarın anası Şirinbəyim xanıma aid olması idi. O, arxalığının süzülmüş tirmə hissəsinə, didilmiş xəzinə diqqət yetirməklə milli musiqimizin bayraqdarı olan Üzeyir bəyi yetişdirən, ona qayğı göstərən bir mehriban ananı göz önünə gətirdi. İş prosesində Üzeyir Hacıbəyovun ecazkar musiqisinə qulaq kəsilməklə Şirinbəyim xanımın böyük musiqiçi oğlu ilə birgə keçirdiyi anların ruhunu bu günə gətirməyə çalışırdı, hiss edirdi ki, musiqi ladlarının axıcılığı sapların ritminin ahəngdarlığının əldə olunmasına kömək edir. Beləcə bir neçə aylıq gərgin əməyin nəticəsində Üzeyir ocağına məxsus maddi-mədəniyyət nümunələrinin ömrü artırıldı, məhv olmaq təhlükəsindən xilas oldu...



*Dünyada mövcud olan çoxsaylı peşələrin mahiyyətinə görə bir-birinə oxşarlığı nə qədər çox olsa da bərpaçılıq sənəti bu mənada da başqalarından fərqlənməkdədir. Onu yalnız canlılara can verən, ikinci ömür bəxş edən təbiblərlə müqayisə etmək, oxşatmaq mümkündür. Fərqi bir ondadır ki, təbib müasiri ilə göz-gözə qalmaqla onunla dialoqa girmək imkanındadırsa, bərpaçı bir qayda olaraq keçmişlə, tarixlə üz-üzə qalmalı olur. Odur ki, xəyalən təfəkkürünün zənginliyinin köməkliyi və vasitəçiliyi ilə ötən əsrlərə qayıdır, həyata qaytarmağa hazırladığı cansız əşyanın – özündə qanlı-qadalı tarixi yaşadan maddi-mədəniyyət nümunələrin yarandığı mühitə, şəraitə qiyabi bələdçilik etməyə çalışır.*



L.Kərimov adına Azərbaycan xalçası və xalq-tətbiqi sənəti Dövlət muzeyinin rəhbərliyi XX əsrin əvvəllərinə aid edilən qadın tumanını bərpa üçün təqdim edəndə onun əvvəlki görkəminə qaytarılacağına özlərinin də ümidləri çox az idi. Çünki ağ ipək parçadan tikilmiş tumanın çoxlu miqdarda itkiləri, zədələri və naxış süzülmələri vardır. Hamı ağır durumuna görə ondan sözün əsl mənasında əlini üzmüşdü, təkcə Bəstixanımdan başqa. Onun səkkiz aylıq zəhməti hədər getmədi. O tumanın həmin itkilərini, həm də zərli saplarla işləmiş butalı naxışlarını bərpa etməklə onlara əvvəlki təravətini, bədii-estetik dəyərini qaytara bildi...

Onun Azərbaycan Dövlət İncəsənət muzeyinə məxsus olan araxçına verdiyi «ikinci həyat»ın yolu da süzülmüş səthi bərpa etmədən və naxışları təşkil edən muncuqların nə vaxta malik olduğu görkəmə qaytarmaqdan keçib. Bu iş o qədər incəliklə görülüb ki, onun naxış örtüyünə əl gəzdirilməsi bir zərrə qədər də olsun hiss olunmur...

Bəstixanım bütün xalq sənəti nümunələrinə özünəməxsus sevgisi olsa da bu diqqət orbitində təkəlduz tikmələri xüsusi yer tutur. Bəlkə də bunu şərtləndirən başlıca səbəb onun bərpaçı kimi işə başladığı mərkəzdə müraciət etdiyi ilk nümunənin «təkəlduz» texnikasında hazırlanmış bədii tikmə olması idi. L.Kərimov adına Azərbaycan xalçası və xalq-tətbiqi sənəti Dövlət muzeyinin kolleksiyasında önəmli yer tutan bu tikmə bir-neçə yerdən cırılmış, naxış örtüyünə isə bir-neçə yerdən ciddi ziyan dəymişdi. Yarım ildən çox bir müddətdə gənc bərpaçı ciddi səyləri nəticəsində təkəlduz nümunəsini əvvəlki görkəminə qaytardı və bununla da həyata bərpaçı vəsiqəsi aldığını təsdiqləmiş oldu. Çünki, mütəxəssislər və həmkarları görülən işin barəsində yüksək fikirdə idilər...

Bərpaçının Azərbaycan Dövlət İncəsənət muzeyinə məxsus yəhərüstünü əvvəlki görkəminə qaytarmasında onun yüksək inadkarlığı və səyləri nəticəsində baş vermişdir. Dəri üzərində məhudu örtən gözoxşayan naxış elementləri Bəstixanımın davamlı axtarışları sayəsində əski ritmini bərpa etmiş oldu... Bu gün nüfuzlu muzeyin ekspozisiyasında seyrçi diqqətini cəlb etməsi sənətini sevdiyini dəfələrlə sübut edən bərpaçının öz işinin çətin texniki incəliklərinə bələdçiliyinin ifadəsidir...

Zərli saplarla işlənmiş saçaqlı süfrələr, dekorativ pannolar, arxalıqlar, tirmədən tikilmiş geyimlər, muncuqla bəzədilmiş baş geyimləri, yəhər üstülər, kişi əbaları, bədii kəmərlər, tül örtüklər də Bəstixanım Əliyevanın bərpa etdiyi nümunələr sırasındadır. O, hərdən tikməyə «qohumluğu» çatan xalça və kilimləri də bərpa edib, bunu adi maraq yox, bərpaçı özünü inandırmaq üçün görüb... Onların hər birinin özünəməxsus «vəziyyəti», ayrı-ayrı tarixi dövrü bərpaçı-rəssamı qorxutmamış və o, hər yeni çətinliyi dəf etməklə öz sənətinə bələdçiliyini və ona sevgisini nümayiş etdirmiş olub. Bu gün Azərbaycan Dövlət İncəsənət Muzeyinin, Neftçala tarix-diyarşünaslıq muzeyinin, eləcə də, digər neçə-neçə rayon muzeyinin ekspozisiyasına tamaşa edənlər. Din tarix muzeyinin kollek-

17021

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

siyası ilə tanış olanlar Bəstixanım Əliyevanın gözünün işığı ilə həyata qaytardığı tikmə nümunələrinə baxıb zövq almaqla onların bərpasına da minnətdarlıqlarını ifadə edirlər. Bərpaçı rəssam özü isə bütün bunları el sənətinin ona aşıladığı sayagəlməz bədii-estetik məziyyətə professional borcunun qaytarılması, əvəzsiz seçmədən qaynaqlanan dəyərləndirmə hesab edir. Elə kollektivin rəhbərliyinin də onun səmərəli səylərini dəyərləndirib, onu fəxri fərmanlarla təltif etməsi də bütün mənalarda təsdiqidir. Bu gün onun ali kateqoriyalı bərpaçı adını daşıması da sənətkarlığına verilən yüksək qiymətdir...

Həmkarları onu həm də bir yaradıcı rəssam kimi tanıyırlar. Belə iş xalça-palaz və tikməylə olan bağlılığı onu toxuculuq sahəsində orijinal sənət nümunələri yaratmağa sövq edir. Onun toxuduğu mini qobelenlər artıq 1987-ci ildən keçirilən ən müxtəlif miqyaslı sərgilərin daimi bəzəyinə çevrilməkdədir. Onun ilin fəsillərinə həsr etdiyi qobelenlər ən tələbkar tamaşaçıların və mütəxəssislərin də rəğbətini qazanıb. Əsərlərinə xas olan yüksək sənətkarlıq onun 2005-ci ildə Azərbaycan Rəssamlar İttifaqının üzvlüyünə qəbulunu şərtləndirib və o, indi yaradıcılıq kollektivinin dekorativ-tətbiqi sənət bölməsinin üzvüdür. Bütün bunlar isə onu yeni-yeni axtarışlara həvəslәndirib. Bu gün də bərpaçı-rəssam və istedadlı qobelen ustası yeni yaradıcılıq axtarışındadır. Bunu isə ilk növbədə onun həyata və sənətinə olan sonsuz sevgisi şərtləndirməkdədir.

**E.HƏSƏNQIZI**

